**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI**

# Auditor adı almaq üçün imtahanların keçirilməsi

# Q A Y D A L A R I

**Bakı – 2025**

*Azərbaycan Respublikasının*
*Auditorlar Palatası Şurasının*
*2025-ci il 02 may tarixli 376/4 nömrəli*
*Qərarı ilə təsdiq edilmişdir*

# Auditor adı almaq üçün imtahanların keçirilməsi

# QAYDALARI

1. Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları (bundan sonra "Qaydalar" adlandırılacaq) "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Milli Məclisinin 19 sentyabr 1995-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"yə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmşdır və Azərbaycan Respublikası Auditorlar Palatasının Auditor adı almaq üçün İmtahan Komissiyası (bundan sonra "İmtahan Komissiyası" adlandırılacaq) tərəfindən imtahanların keçirilməsinin prinsiplərini və qaydalarını müəyyən edir.
2. Qaydalar hazırlanarkən aşağıdakı əsas istiqamətlər üzrə prinsiplər nəzərə alınmışdır:

- Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC), Beynəlxalq Təhsil Standartlarının (BTS), "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının, eləcə də Beynəlxalq Audit və Təminat Standartları Şurası (IAASB) tərəfindən müəyyən edilmiş Beynəlxalq Audit Standartlarının (BAS) tələbləri;
- tədris və davamlı peşə təhsili proqramlarında beynəlxalq təcrübə nəzərə alınmaqla auditor adı almaq üçün imtahanların bir pilləli test üsulu ilə keçirilməsi;
- imtahanların şəffaf və obyektiv qiymətləndirmə prinsiplərinə əsaslanması;
- auditor adı almaq üçün müraciət etmiş şəxslərin BAS-lara və Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblər üçün beynəlxalq etika məcəlləsi"nin (MBEŞ Məcəlləsi) prinsiplərinə uyğun biliklərinin yoxlanılması;
- auditor adı almaq üçün müraciət etmiş şəxslərin mühasibat üçotunun aparılması və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun maliyyə hesabatlarının hazırlanması qaydaları, auditin aparılmasının prinsipləri və prosedurları (BAS), Azərbaycan Respublikasının Vergi Məcəlləsinin, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin, hüquq və sahibkarlıq fəaliyyəti ilə bağlı digər normativ aktların mənimsənilməsi, audit zamanı peşəkar davranış və peşə etikası, maraqların toqquşması və müstəqillik prinsiplərinə əməl olunması sahəsində biliklərinin yoxlanılması məqsədilə ixtisas imtahanlarının keçirilməsi;

- auditor adı almaq üçün imtahanları müvəffəqiyətlə vermiş şəxslərə İmtahan Komissiyasının sədri tərəfindən təsdiq edilmiş, Azərbaycan və ingilis dillərində tərtib olunan sertifikatın verilməsi;
- auditor adı almaq üçün imtahanları müvəffəqiyyətlə vermiş şəxslərə sertifikat 5 il müddətinə verilir və xüsusi jurnalda sertifikatın qeydiyyatı aparılır;
- sertifikat almış şəxslər Azərbaycan Respublikası Auditorlar Palatasından (bundan sonra "Palata" adlandırılacaq) müvafiq icazə aldıqdan sonra 5 il müddətində auditor fəaliyyəti ilə məşğul olmaq hüququ qazanırlar;
- sertifikat almış şəxslər auditor fəaliyyəti ilə məşğul olmaq üçün Palatadan icazə almayıblarsa və 5 il müddətində icazə almaq üçün Palataya müraciət edərlərsə, onların hər il minimum 40 tədris saatından az olmamaqla Palatada auditorlar üçün təşkil edilən ixtisasartırma kurslarında, yaxud audit üzrə təşkil edilən beynəlxalq səviyyəli kurslarda iştirak etmələri tələb olunur, əks-təqdirdə həmin şəxslər auditor adı almaq üçün ümumi əsaslarla yenidən imtahan verməlidirlər;
- hər il minimum 40 tədris saatından az olmamaqla Palatada auditorlar üçün təşkil edilən ixtisasartırma kurslarında, yaxud audit üzrə təşkil edilən beynəlxalq səviyyəli kurslarda iştirak etməklə bağlı tələb auditor fəaliyyəti ilə məşğul olmaq üçün Palatadan icazə almış şəxslərə də şamil edilir, əks-təqdirdə onlara auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazənin verilməsi Palata Şurasının 3 may 2019-cu il tarixli 310/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların İxtisasartırması Qaydaları"na uyğun olaraq həyata keçirilir.

3. Auditor adı almaq üçün imtahanları Palata sədrinin müvafiq əmri ilə yaradılmış İmtahan Komissiyası qəbul edir. İmtahanların nəticələri müvafiq proqramı təminatı vasitəsilə qiymətləndirilir.
4. İmtahan Komissiyasının fəaliyyəti Palata Şurasının qərarı ilə təsdiq edilmiş "Auditorlar Palatasının Auditor adı almaq üçün İmtahan Komissiyası haqqında Əsasnamə" ilə tənzimlənir.
5. Auditor adı almaq üçün imtahanlara yalnız "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin tələblərinə cavab verən şəxslər buraxılırlar.
6. Auditor adı almaq üçün müraciət etmiş şəxslər aşağıdakı sahələr üzrə ixtisas imtahanlarını verməlidirlər:

- Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (KOSS MHBS)
- Azərbaycan Respublikasının Vergi Məcəlləsi;
- Beynəlxalq Audit Standartları (BAS)

- Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə.Hədəfli maliyyə sanksiyaları.

7. İmtahanlarda iştirak etmək istəyən şəxs aşağıda qeyd olunmuş sənədləri İmtahan Komissiyasına təqdim etməlidir:

- İmtahan Komissiyası sədrinin adına müəyyən olunmuş formada yazılmış ərizə;
- şəxsiyyət vəsiqəsinin surəti;
- anket;
- tərcümeyi-hal;
- mühasibat uçotu, maliyyə, iqtisadçı və hüquqşünas ixtisaslarından hər hansı biri üzrə ali təhsil haqqında diplomun notarial qaydada təsdiq olunmuş surəti;
- 4x6 sm ölçüdə 4 ədəd rəngli foto-şəkil;
- əmək kitabçasının notarial qaydada təsdiq olunmuş surəti (şəxs işlədiyi halda əmək kitabçasının surətinin üzərində "Əsli ilə düzdür" yazılıb, işlədiyi təşkilat tərəfindən imza və möhürlə təsdiqlənməlidir);
- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilmiş məhkumluğun olmaması haqqında arayış;
- imtahanda iştirak haqqının ödənilməsi barədə qəbz;

8. İmtahanlarda iştirak etmək üçün İmtahan Komissiyasına müraciət etmiş şəxs bu Qaydaların 7-ci bəndində qeyd olunan sənədləri həmçinin Palatanın internet səhifəsində (www.audit.gov/az) "Elektron xidmətlər" bölməsində də qeydiyyatdan keçirməlidir.
9. Sənədlər qovluqda tikilir, qovluğun üz tərəfində imtahanlarda iştirak etmək üçün İmtahan Komissiyasına müraciət etmiş şəxsin iş nömrəsi, adı, atasının adı və soyadı, qeydiyyat tarixi göstərilir.
10. İmtahan Komissiyasına daxil olmuş sənədlərin xüsusi jurnalda qeydiyyatı aparılır.
11. Bu Qaydaların 7-ci bəndində qeyd olunmuş sənədlərdən hər hansı biri çatışmadıqda müraciət etmiş şəxsin sənədləri qəbul olunmur və sənədlərin qəbul olunmamasının səbəbi barədə İmtahan Komissiyası tərəfindən həmin şəxsə 3 gün müddətində yazılı məlumat təqdim edilir.
12. Təqdim olunmuş sənədlər İmtahan Komissiyasının məsul katibi tərəfindən yoxlanıldıqdan sonra qəbul olunur. Sənədlərdəki məlumatların düzgünlüyünə görə müraciət etmiş şəxs məsuliyyət daşıyır.
13. İmtahan Komissiyası imtahan vermək üçün Palataya müraciət etmiş şəxsin sənədlərindən hər hansı birinin saxta olduğunu, yaxud sənədlərdə dürüst olmayan hər

hansı bir məlumatın, yaxud düzəlişin olduğunu aşkar etdikdə İmtahan Komissiyasının qərarı ilə həmin şəxs imtahan vermək hüququndan məhrum edilir.

14. İmtahanlar bir qayda olaraq hər rübdə bir dəfə olmaqla İmtahan Komissiyası tərəfindən keçirilir. İmtahanların keçirilməsi barədə 2 ay əvvəldən kütləvi informasiya vasitələrində və Palatanın internet səhifəsində elan verilir. İmtahanları vermək üçün Palataya müraciət etmiş və qeydiyyatdan keçmiş şəxslərin sayı 10 nəfər və daha çox olduqda imtahanlar keçirilir.
15. İmtahanlarda iştirak ödənişlidir. İmtahanlarda iştirak haqqının məbləği Palata Şurasının qərarı ilə müəyyən edilir.
16. İmtahan vermək üçün Palataya müraciət etmiş şəxslər bu Qaydaların 6-cı bəndində qeyd olunan mövzular üzrə bir pilləli test formasında ixtisas imtahanını verməklə auditor adı ala bilərlər.
17. Şəxs hər hansı bir üzürsüz səbəbdən imtahanda iştirak etmədikdə ödənilmiş imtahanda iştirak haqqı geri qaytarılmır və auditor adı almaq üçün keçirilən növbəti imtahanlarda nəzərə alınmır.
18. İmtahan vermək üçün müraciət etmiş şəxslərin siyahısı imtahan gününə beş gün qalmış İmtahan Komissiyası tərəfindən təsdiq olunur. Həmin siyahıya imtahan vermək üçün müraciət etmiş şəxslər barədə aşağıdakı məlumatlar daxil edilir:

- adı, atasının adı və soyadı;
- doğum tarixi və yeri;
- qeydiyyatda olduğu ünvan;
- iş yeri və vəzifəsi haqqında məlumat;
- mühasibat uçotu, maliyyə, iqtisadçı və ya hüquqşünas ixtisası üzrə iş stajının ümumi müddəti;
- bitirdiyi ali təhsil müəssisəsinin adı, diplomun nömrəsi, verilmə tarixi və diplom üzrə ixtisasının adı.

19. İmtahan Komissiyası tərəfindən təsdiq olunmuş siyahı üzrə imtahanda iştirak etmək hüququ əldə etmiş şəxslərə beş gün əvvəldən imtahanın vaxtı və yeri haqqında yazılı məlumat verilir.
20. İmtahanda iştirak etmək hüququ əldə etmiş şəxslər imtahana şəxsiyyəti təsdiq edən sənədlə buraxılırlar.
21. İmtahan Komissiyası üzvlərinin üçdə iki hissəsi, o cümlədən İmtahan Komissiyasının sədri iştirak etdikdə İmtahan Komissiyası imtahan qəbul etmək üçün səlahiyyətlidir.
22. İmtahanlar test üsulu ilə keçirilir. İmtahan testləri imtahanın vaxtına 5 gün qalanadək İmtahan Komissiyasının sədri tərəfindən təsdiq edilir.

23. İmtahan vaxtı normativ hüququ sənədlərdən, təlimatlardan və ədəbiyyatdan istifadə etmək, imtahan verən digər şəxslərlə danışmaq, imtahan testinin üzərində tələb olunandan əlavə qeydlər etmək, hər hansı köməkçi materiallardan (kitab, konspekt, kompüter texnikası və s.) istifadə etmək, imtahan biletlərini imtahanın keçirildiyi yerdən kənara çıxarmaq, imtahanın gedişi zamanı auditoriyanı səbəbsiz olaraq tərk etmək, mobil telefondan və digər elektron rabitə vasitələrindən istifadə etmək qadağandır.
24. Bu tələbləri pozmuş şəxslər imtahandan kənarlaşdırılır və imtahan verməmiş hesab olunurlar.
25. İmtahan Komissiyasının üzvlərindən və imtahan verən şəxslərdən başqa digər şəxslərin imtahanda iştirakına icazə verilmir.
26. İmtahanın müddəti iki saatdır.
27. Hər bir iştirakçı xüsusi kod vasitəsilə şəxsi kabinetinə daxil olur və ona ayrılmış imtahan suallarını cavablaya bilir.
28. İmtahanın keçirilməsi üçün ayrılmış vaxt başa çatdıqdan sonra imtahan verən şəxs kompüterin monitorundakı "İmtahanı sonlandır" düyməsini basaraq imtahanı yekunlaşdırır və monitorda imtahan verən şəxsin imtahanda topladığı yekun balı qeyd olunur. İmtahanda sonadək iştirak etmiş şəxslərin topladıqları ballar imtahan başa çatdıqdan sonra üç saat müddətində İmtahan Komissiyası tərəfindən rəsmi qaydada elan edilir.
29. İmtahan biletinə hər bir şəxsə ayrılmış 120 test sualı daxil edilir.
30. İmtahan Komissiyası imtahan verən şəxsin test vərəqindəki hər bir sualın düzgün cavabını bir balla, səhv cavabı isə 0 balla qiymətləndirir. İmtahan biletinə daxil olan bütün sualların düzgün cavablarına görə toplanan mümkün nəticə 120 bal təşkil edir.
31. İmtahan biletindəki 120 sualın 80 faizinə cavab vermək şərtilə imtahanda ən azı 96 bal toplamış şəxslər imtahanları müvəffəqiyyətlə vermis hesab edilirlər.
32. Auditor adı almaq üçün keçirilən imtahanlarda iştirak etmiş, ACCA, CIPA və CAP sertifikatlarına malik olan şəxslərin imtahan balları hesablanarkən onlara bu Qaydaların 32-ci bəndində qeyd olunmuş keçid balına aşağıdakı güzəştlər tətbiq edilir:
    - ACCA sertifikatlarına malik olan şəxslərə - 10 bal;
    - CIPA, CPA sertifikatlarına malik olan şəxslərə - 5 bal;
    - CAP sertifikatlarına malik olan şəxslərə - 3 bal.
33. İmtahanlar başa çatdıqdan sonra, imtahanların nəticəsinə görə İmtahan Komissiyasının qərarı tərtib edilir, qərar İmtahan Komissiyasının sədri və imtahanda iştirak etmiş Komissiya üzvləri tərəfindən imzalanır. Sonda yekun protokol tərtib edilir,

protokol İmtahan Komissiyasının sədri tərəfindən imzalanır və həmin gün Palatanın internet səhifəsində yerləşdirilir.

34. Auditor adı almaq üçün müraciət etmiş şəxslər tərəfindən İmtahan Komissiyasına təqdim olunmuş sənədlər geri qaytarılmır və İmtahan Komissiyanın protokolu ilə birlikdə Palatada beş il müddətində saxlanılır, sonra isə İmtahan Komissiya tərəfindən müvafiq aktla məhv edilir.

35. İmtahan vermiş şəxs imtahanın nəticəsi ilə razılaşmadıqda imtahan başa çatdıqdan sonra iki həftə müddətində Palata sədrinin əmri ilə yaradılmış Apelyasiya Komissiyasına apelyasiya şikayəti ilə müraciət etmək hüququna malikdir. Apelyasiya şikayəti Apelyasiya Komissiyasına yazılı formada təqdim edilir. Apelyasiya Komissiyası beş gün müddətində apelyasiya şikayətini araşdıraraq müvafiq qərar qəbul edir və ərizəçiyə bu barədə yazılı məlumat təqdim edir. Qərarın mətni Auditorlar Palatasının internet saytında yerləşdirilir. Apellyasiya şikayətinin araşdırılmasında İmtahan Komissiyası üzvlərinin müəyyən olunmuş qaydada iştirakı təmin edilir.

36. İmtahan Komissiyasının üzvlərinə Palata Şurasının qərarı ilə müəyyən edilmiş məbləğdə və qaydada haqq ödənilir.

37. İmtahanda iştirak etmiş, lakin tələb olunan keçid balını toplaya bilməmiş şəxslər yalnız bir dəfə iştirak haqqı ödəmədən auditor adı almaq üçün keçirilən növbəti imtahanlarda iştirak edə bilərlər. Həmin şəxslər imtahanda tələb olunan keçid balını ikinci dəfə də toplaya bilmədikdə, auditor adı almaq üçün növbəti imtahanlarda ümumi əsaslarla təkrar iştirak edə bilərlər.

38. Bu Qaydaların 13 və 24-cü bəndlərində qeyd olunan halların baş verməsi səbəbindən imtahanda iştirak etməmiş şəxslərə, habelə imtahanda iştirak etmiş, lakin bu Qaydaların 32-ci bəndində qeyd olunan keçid balını toplaya bilməmiş şəxslərə onların ödədikləri imtahanda iştirak haqqı geri qaytarılmır.